# Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2024-cü il üzrə fəaliyyəti haqqında
# H E S A B A T

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Prezidentin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, respublikanın tərəfdar olduğu beynəlxalq konvensiyaları, dövlət proqramlarını rəhbər tutaraq müvafiq sahələr üzrə vəzifələrini icra edir.

Komitə 2024-cü ildə əsasnaməsi ilə müəyyən edilmiş istiqamətlər üzrə və iş planına uyğun fəaliyyət göstərmiş, dövlət orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları və media qurumları ilə səmərəli əməkdaşlıq etmişdir.

**2024-cü il ərzində 8 sənəd layihəsi təsdiq edilmişdir:**

- "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;
- "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;
- "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- "Azərbaycan Respublikasının Mülki Prosessual, Azərbaycan Respublikasının Cinayət-Prosessual, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- Erkən evliliklə bağlı "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin Qərarı;
- "Məişət zorakılığından zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin Qərarı;
- "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair

maarifləndirmə Qaydası”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar

Həmçinin Komitəyə müvafiq qurumlardan daxil olan **12 sənəd** layihəsinə rəy və təkliflər verilmişdir.

**Ailə məsələləri ilə bağlı** il ərzində keçirilən **74** təlim, seminar və görüşlərdə **6927** nəfər iştirak etmişdir.

İl ərzində sağlam ətraf mühit və sağlam həyat tərzinin təbliği, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, uşaqların doğulanadək cins seçiminin qarşısının alınması, ailə dəyərlərinin və ənənələrinin təbliği, reproduktiv sağlamlıq və ailə planlaşdırılması, erkən nikah və qohumlar arasında nikah hallarının qarşısının alınması istiqamətində respublikanın **30** orta məktəb və digər təhsil müəssisələrində görüşlər keçirilmişdir. Görüşlər çərçivəsində keçirilən **53** tədbirdə **5029 nəfər** iştirak etmişdir.

“Regional İnkişaf” İctimai Birliyinin əməkdaşlığı ilə respublikanın bütün rayon və şəhərlərindən olan **120**-dən çox gənc ailələrin iştirakı ilə “Ekoloji düşüncə ailədən başlayır” şüarı ilə “Ailə Festivalı”, **100**-dən çox ailənin iştirakı ilə “Ailə-dəyişməyən dəyərimiz” mövzusunda isə Gənc Ailə Forumu keçirilmişdir.

Dövlət Komitəsi yanında İctimai Şuranın təşkilatçılığı ilə “Erkən nikah, uşaq evliliyi hallarının qarşısının alınmasında QHT-lərin rolu: mövcud vəziyyət və yeni baxış” mövzusunda ictimai dinləmə və “Erkən nikahın qarşısının alınması” mövzusunda təlim keçirilmişdir.

Ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqinin genişləndirilməsi istiqamətində Mediasiya Şurası, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi və Bakı 9 Saylı Mediasiya Təşkilatının birgə əməkdaşlığı çərçivəsində beynəlxalq ekspertin iştirakı ilə konfrans keçirilmişdir.

İl ərzində Dövlət Komitəsinin www.eudi.az onlayn resurs portalının fəaliyyətinə **10** mütəxəssis cəlb edilmiş, portalda **115** maarifləndirici material yerləşdirilmişdir. İl ərzində portala daxil olma sayı 2023-cü il ilə müqayisədə 21 dəfə artaraq **2 100 000** nəfərdən çox olmuşdur.

**Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyətindən** İl ərzində ümumilikdə **25 354** nəfər bəhrələnmişdir.

Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə (UADM-lərə) **2370** nəfər tərəfindən müxtəlif mövzularla bağlı **2455** müraciət daxil olmuş, **890** ailəyə səfər edilmişdir. Bu müraciətlərdən **965**-i təmin olunmuş, digərləri yönləndirilmiş və nəzarətdə saxlanılmışdır.

UADM-lər tərəfindən psixoloq, sosial işçi və hüquqşünasların iştirakı ilə 10 “açıq qapı” günü keçirilmiş, 960 nəfər müraciət etmişdir.

Dövlət proqramları və milli fəaliyyət planlarının müvafiq bəndlərinin icrası məqsədilə keçirilən **651** tədbir və təlimdə **21 705** nəfər iştirak etmişdir.

UADM-lər tərəfindən “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində təhsil müəssisələri və istirahət parklarında məktəblilər arasında ekoloji tərbiyənin formalaşdırılması məqsədilə 908 nəfərin iştirakı ilə 29 maarifləndirici tədbir və ağacəkmə aksiyası keçirilmişdir.

İsmayıllı, Qəbələ, Zaqatala, Göygöl, Goranboy, Şüvəlan, Saatlı, Sabirabad rayonlarında gənc ailələrin iştirakı ilə ailə həyatına hazırlıq məqsədilə təlimlər keçirilmişdir.

1 İyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə “Mənim kitabxanam” adlı layihəsi çərçivəsində UADM-lərin benefisiarları olan, eyni zamanda təhsildə fərqlənən, sosial cəhətdən həssas təbəqədən və aztəminatlı ailələrdən olan **110** məktəbli üçün oxu guşəsi (kitab rəfi və yazı masası dəsti, kitablar və dəftərxana ləvazimatları) yaradılmışdır.

Uşaqların yolda təhlükəsizliyini təmin etmək, yol hərəkəti qaydaları haqqında maarifləndirilməsi məqsədilə UADM-lərin fəaliyyət göstərdiyi rayonlarda **1100** nəfər məktəblinin iştirakı ilə “Qırmızı, Sarı, Yaşıl” adlı layihə keçirilmişdir.

Komitə tərəfindən İsmayıllı və Şamaxı rayonlarında **66** uşağın iştirakı ilə yay düşərgəsi təşkil edilmişdir. Düşərgədə UADM-lərin benefisiarları olan şəhid və qazi ailələrinin, həmçinin aztəminatlı ailələrinin uşaqları iştirak etmişdir.

**Postmüharibə dövründə psixososial işin aparılması** məqsədilə işğaldan azad olunmuş ərazilərdə məskunlaşan ailələr və uşaqlarla psixo-sosial işin təşkili layihəsi 2024-cü ildə də davam etdirilmişdir. Layihə çərçivəsində Füzuli, Zəngilan və Laçın rayonlarında "Uşaq və valideynlərin sosial ünsiyyət bacarıqlarının artırılması" mövzusunda **300** nəfərin iştirakı ilə təlimlər keçirilmişdir.

“Müharibədən zərər çəkən uşaq və ailələrə psixososial dəstək” layihəsi çərçivəsində Ağdam və Goranboy UADM-ləri tərəfindən Ağdam rayonunun Rzalar və Mahrızlı kənd məktəbləri, Goranboy rayonu Qaraçınar kənd məktəbi və Kəlbəcər rayonunun E.Hümbətov adına 63 saylı orta məktəbin şagirdləri, ümumilikdə 100 nəfər psixoloji treninqlərə cəlb olunmuşdur.

İşğaldan azad olunmuş ərazilərə geri qayıdan əhaliyə dəstək göstərilməsi, onların adaptasiyasının daha səmərəli həyata keçirilməsi üçün müvafiq dövlət orqanları əməkdaşları üçün 64 nəfərin iştirakı ilə “Qaynar xəttin əsas iş prinsipləri” mövzusunda təlimlər keçirilmişdir**.**

**Qadın problemləri və gender məsələləri sahəsində** ümumilikdə **9689** nəfərin iştirakı ilə **98** təlim, seminar, konfrans keçirilmişdir.

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının 10 oktyabr 2006-cı il tarixli Qanununun 20-ci maddəsinə əsasən Dövlət Komitəsinin 2023-cü il üzrə Məlumatı Milli Məclisə təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyasının birgə əməkdaşlığı ilə **20** regionda qadınların prezident seçkilərində fəallığının yüksəldilməsinə həsr olunmuş görüşlər keçirilmişdir.

Eyni zamanda “Milli Məclisə seçkilərdə qadınların fəallığının yüksəldilməsi” mövzusunda Bakı şəhərinin rayonlarında və 21 regionda 2600 nəfər qadının iştirakı ilə görüşlər keçirilmişdir.

“Yaşıl Dünya Naminə Həmrəylik İli” çərçivəsində qadın təşkilatları, vətəndaş cəmiyyəti institutları və ictimai birliklərin nümayəndələrinin iştirakıyla “Ekoloji tarazlığın və insan hüquqlarının təminatı sahəsində vətəndaş cəmiyyətinin rolunun artırılması”, həmçinin Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunmuş “Su və gender bərabərliyi”, Şuşa şəhərində “İslam dünyasında qadınlar: ənənələr və çağırışlar” mövzularında konfranslar keçirilmiş, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Mədəniyyətlərarası dialoq vasitəsilə qadın hüquqlarının təşviqi: Qlobal proqresə doğru” adlı sessiya təşkil olunmuşdur.

8 mart Beynəlxalq Qadınlar günü ərəfəsində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təltif olunan, Azərbaycanın ictimai-siyasi həyatında fəal olan qadınların iştirakı ilə bayram tədbiri keçirilmişdir.

Ümummilli Lider Heydər Əliyevin xatirəsinə və Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş "Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda Naxçıvan Muxtar Respublikasında **550** nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası veteranlarının gənclərlə görüşü keçirilmişdir.

"Regional İnkişaf" İctimai Birliyinin əməkdaşlığı ilə "Güclü cəmiyyətin zərif simaları" layihəsi çərçivəsində **10** regionda (Gəncə, Sumqayıt, Şəki, Mingəçevir şəhərlərində və Quba, Xaçmaz, Şəmkir, Zaqatala, Qax, Masallı rayonlarında) ümumilikdə 2000 nəfər gənc qız və qadının iştirak ilə görüşlər, "Çempion ailələr" layihəsi çərçivəsində isə UADM-lərin yerləşdiyi Sabirabad, Saatlı, Hacıqabul, Zaqatala, İsmayıllı, Qəbələ, Zərdab, Goranboy, Göygöl və Ağdam rayonlarında ailələr arasında idman yarışları və intellektual müsabiqələr keçirilmişdir.

"III Bahar" İctimai Birliyinin əməkdaşlığı ilə "Selektiv abortlarla mübarizə" Kampaniyası çərçivəsində Qadın Resurs Mərkəzlərinin iştirakı ilə Sumqayıt şəhərində və Bakı şəhərinin Xəzər rayonunda ictimai birliyin üzvləri ilə müxtəlif yaş qruplarından olan əhali ilə görüşlər keçirilmiş, Gənc Tamaşaçılar Teatrında geniş kütlə üçün "Güclü Zəriflər" adlı sosial təbliğat məqsədli teatr tamaşası nümayiş olunmuşdur.

Reproduktiv sağlamlığın qorunması, erkən və qohumlar arasındakı nikahların yaratdığı fəsadların və qızların təhsildən yayınması hallarının qarşısının alınması istiqamətində əhalinin maarifləndirilməsi istiqamətində Bakı şəhəri və 16 regionda Qadın Resurs Mərkəzlərinin iştirakı ilə (Sumqayıt şəhərində, Masallı, Bərdə, Füzuli, Sabirabad, Göyçay, Neftçala, Biləsuvar, Qusar, Tərtər, Ağcabədi, Salyan, Tovuz, Zaqatala, Cəlilabad, Xaçmaz rayonlarında) **"**Erkən nikah və qohumlar arasında nikah hallarının qarşısının alınması" mövzusunda təlimlər keçirilmişdir.

10 regionda (Saatlı, Sabirabad, Qusar, Quba, İsmayıllı, Şamaxı, Gədəbəy, Tovuz, Biləsuvar, Masallı rayonları) "Bələdiyyələrdə yaradılmış gender komissiyalarının işinin gücləndirilməsi" mövzusunda **350** nəfərin iştirakı ilə seminarlar təşkil olunmuşdur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün "Gender bərabərliyi mədəniyyətinin təbliği" mövzusunda 60 nəfərin iştirakı ilə təlim keçirilmişdir.

Təhsilin İnkişafı Fondu, Azərbaycan Mətbuat Şurası və "Azərbaycan müəllimi" Qəzetinin birgə əməkdaşlığı çərçivəsində "Qızların təhsilinə dəstək" mövzusunda media subyektlərinin təmsilçiləri arasında yazı müsabiqəsi keçirilmiş və qaliblər Komitə tərəfindən təltif edilmişdir.

Dövlət Komitəsinin Azərbaycan Banklar Assosiasiyası ilə birgə həyata keçirdiyi "Sən tək deyilsən" layihəsi çərçivəsində "Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramı daxilində 2024-cü ildə ali məktəblərə qəbul olmuş Vətən müharibəsi şəhidlərinin həyat yoldaşları ilə görüş keçirilmişdir. Görüşdə tələbə adı qazanan şəhid xanımlarına sertifikat və hədiyyələr təqdim edilmişdir.

Dövlət Komitəsi Elm və Təhsil Nazirliyinin və Təhsilin İnkişafı Fondunun əməkdaşlığı ilə həyata keçirilən "Gənc Qızların Təhsilinə Dəstək" layihəsi çərçivəsində 2024-2025-ci tədris ilində tələbə adını qazanan daha **50** nəfər tələbə qız "Hənifə Məlikova - Zərdabi adına təqaüd proqramı"na cəlb olunmuşdur.

Eyni zamanda bu layihə daxilində “Abituriyent qızların təhsilinə dəstək” komponenti həyata keçirilmişdir. Dövlət Komitəsi ilə “Kapital Bank” Açıq Səhmdar Cəmiyyəti arasında anlaşma memorandumu imzalanaraq, “Arzumuz var” sloqanı ilə yeni təqaüd proqramının ilk mərhələsində Bakı şəhəri və regionlardan olan **15** nəfər abituriyentin ali məktəblərə daxil olmaq üçün hazırlıq kurslarına cəlb edilməsinə dəstək göstərilməkdədir.

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi, Dövlət Komitəsi, Meksikanın Azərbaycandakı səfirliyi və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyası çərçivəsində “İqlim dəyişikliyi və gender əsaslı zorakılıq” mövzusunda məlumat sessiyası təşkil olunmuşdur. 3 regionda (Cəlilabad, Biləsuvar və Sabirabad rayonları) **105** nəfərin iştirakı ilə seminarlar keçirilmişdir.

**Uşaq məsələləri sahəsində keçirilən 367** təlim, seminar və görüşlərdə **15 588** nəfər iştirak edərək faydalanmış, **6** sosial layihə keçirilmişdir.

2024-cü il ərzində monitorinq qrupu tərəfindən **15** uşaq müəssisəsində monitorinq keçirilmişdir. Monitorinqlərin nəticələri barədə məlumatlar Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Dövlət Komitəsi ilə Türkiyə Respublikası Ailə və Sosial Xidmətlər Nazirliyi tərəfindən “Azərbaycan və Türkiyə Hökumətləri arasında imzalanmış ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu ilə bağlı Fəaliyyət Planı” çərçivəsində türkiyəli ekspertlərin və **80** nəfər prokurorun iştirakı ilə “Cinayət prosesində uşaq hüquqlarının müdafiəsi” mövzusunda iki günlük təlim keçirilmişdir.

Komitə yanında Uşaq Səfirlər Məclisi 2024-cü ildə də fəaliyyətini davam etdirmişdir. Uşaq Səfirlər Məclisinin üzvləri və regional nümayəndələri üçün “Tədbirlər Planı” hazırlanmış və həmin sənəddə qeyd olunan fəaliyyətlər Dövlət Komitəsinin nəzarəti ilə üzvlər və nümayəndələr tərəfindən uğurla həyata keçirilmişdir.

Uşaq Səfirlər Məclisinin üzvlərinin və region nümayəndələrinin iştirakı ilə "Oğlanlar müzakirəyə qoşulur", “Uşaqdan-uşağa”, “Qızlar müzakirəyə qoşulur”, “Yaşıl dünya” ilə əlaqədar “Yalnız Bir Dünya” adlı layihələri çərçivəsində Bakı şəhərində və Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, respublikanın bütün rayonlarında, həmçinin Gürcüstanda təlim və görüşlər təşkil edilmişdir. Uşaq Səfirlər Məclisinin hər rayon üzrə regional nümayəndələrinin iştirakı ilə onlayn görüşlər davam etdirilmişdir.

"Azərbaycan Uşaqlarının İnkişaf Platforması" İctimai Birliyinin əməkdaşlığı ilə Uşaq Səfirlər Məclisinin Şəki, Zaqatala, Balakən, Qax, Oğuz, Qəbələ, Göygöl, Daşkəsən, Goranboy, Samux, Xocalı, Kəlbəcər rayonları, Gəncə, Naftalan şəhərləri üzrə regional nümayəndələri və fəalları üçün “Uşaqların inkişafı – uğurlu gələcəyin təminatı” mövzusunda təlim proqramı təşkil edilmişdir.

Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumuna hazırlıq məqsədilə uşaqların dövlət rəsmiləri ilə görüşləri təşkil edilmişdir. Həmçinin, hazırlıq mərhələsində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) çərçivəsində BMT-nin Uşaq Fondunun təşkilatçılığı ilə keçirilən “Uşaqlar, gənclər və iqlim fəaliyyəti” üzrə yüksək səviyyəli dəyirmi masada Uşaq Səfirlər Məclisinin üzvləri iştirak etmişdir.

Elm və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində “Ekologiya və uşaqlar” mövzusuna həsr olunmuş Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu Azərbaycanın bütün bölgələrindən **300** uşağın iştirakı ilə keçirilmişdir.

Dövlət Komitəsinin təşəbbüsü əsasında dövlət uşaq müəssisələri məzunlarının insan alveri qurbanına çevrilməsi riskinin azaldılması, sosial-psixoloji xidmətlərin göstərilməsi və məşğulluğun təmin edilməsi işlərinin davam etdirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyinin "Məzun evi"nin sakinləri üçün sosial-məsləhət saatı təşkil edilmişdir.

Daxili işlər Nazirliyinin yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti təcridetmə mərkəzində Dövlət Komitəsi tərəfindən Bakı Şəhər Baş Polis İdarəsi ilə birgə əməkdaşlıq çərçivəsində dilənçiliklə məşğul olan, küçə həyatına məruz qalan uşaqlar və onların valideynləri, eləcə də insan alverindən zərər çəkməsi ehtimal olunan uşaqlarla profilaktik söhbətlər aparılmış, sosial-məsləhət yardımları göstərilmiş, 1 uşaq dövlət uşaq müəssiəsinə yerləşdirilmişdir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə əməkdaşlıq çərçivəsində qadın məhkumlarının problemlərinin öyrənilməsi, hüquqi maarifləndirilməsi istiqamətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən qadınlarla görüş keçirilmişdir.

BMT-nin Uşaq Hüquqları Konvensiyası və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən küçə mühitində olan uşaqların hüquqlarının təmin olunması, onlarda dövlət xidmətlərinə olan inamın artırılması, bu cür uşaqların zorakılıq halları və neqativ təsirlərdən qorunması, aidiyyəti qurumlar arasında küçə mühitinə düşən və düşmə riski olan uşaqlarla bağlı əlaqəli işin təşkili və həmin uşaqlarla bağlı uzunmüddətli, kompleks tədbirlərin işlənib hazırlanması məqsədilə "Regional İnkişaf" İctimai Birliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Sosial Xidmətlər Agentliyinin tərəfdaşlığı ilə "Küçə mühitində olan uşaqlarla iş sahəsində aidiyyəti qurumlar arasında fəaliyyət mexanizminin inkişafı" layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində Türkiyə Respublikasından dəvət olunmuş ekspert tərəfindən **41** nəfər sosial işçi, Bakı şəhəri üzrə rayon icra hakimiyyətləri yanında fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyaların **12** nəfər əməkdaşı və **35** nəfər könüllü üçün təlimlər təşkil edilmiş, ümumilikdə 100 küçə həyatına məruz qalmış uşaq layihəyə cəlb edilmişdir.

1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Komitə və "Azərbaycan Uşaqlarının İnkişaf Platforması" İctimai Birliyinin, Uşaq Səfirlər Məclisinin birgə təşkilatçılığı və Elm və Təhsil Nazirliyinin dəstəyi ilə "Bütöv Azərbaycan" devizi altında "Böyük qayıdış: uşaqlar üçün yeni dövrün başlanğıcı" adlı konfrans keçirilmişdir.

"Uşaq əməyinin istismarının ən pis formalarının qarşısının alınması", "Erkən nikahın qarşısının alınması"**,** "Çətin həyat şəraitində olan uşaqların yerləşdirilməsi", "Təhsildən yayınmanın qarşısının alınması" mövzularında bütün regionlar üzrə icra hakimiyyətləri və Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin əməkdaşlarının iştirakı ilə qurumlararası işin icra mexanizminin gücləndirilməsi məqsədilə onlayn təlimlər keçirilmişdir.

Dövlət Komitəsi tərəfindən "Mənim hüquqlarım" adlı təşviqat avtobusu layihəsi çərçivəsində Cəlilabad, Daşkəsən, Quba, Qovuz, Qax rayonlarını əhatə edən görüşlərdə **650**-yə yaxın uşaq iştirak etmişdir.

Saatlı rayonunda və Lənkəran şəhərində Dövlət Komitəsinin təşkilatçılığı və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Saatlı, Sabirabad, Beyləqan, İmişli, Lerik, Masallı, Yardımlı, Astara, Cəlilabad rayonlarından və Lənkəran şəhərlərindən olan ümumilikdə, **400** qızı əhatə edən şahmat üzrə turnir və ustad dərsləri keçirilmişdir.

Dövlət Komitəsi tərəfindən Türkiyə Spastik Uşaqlar Vəqfindən dəvət olunmuş təlimçilərin iştirakı ilə 8 yaşa qədər uşaqlarla işləyən **90** nəfər mütəxəssis üçün erkən

uşaqlıq dövründə inkişafla bağlı 3 istiqamət üzrə “Erkən uşaqlıq dövründə uşaqların sosial inkişafı”, “Erkən uşaqlıq dövründə uşaqların sağlam böyüməsi, erkən müdaxilə və psixo-emosional sağlamlığı”, “Erkən uşaqlıq dövründə uşaqların təhsili, tərbiyəsi və inkişafı” mövzularında təlimlər təşkil olunmuşdur. Bu istiqamətdə mütəxəssis hazırlığının təmin edilməsi məqsədilə “Erkən uşaqlıq dövrünün inkişafı – koordinasiyalı fəaliyyət” mövzusunda konfrans keçirilmişdir.

Sağlamlıq imkanları məhdud olan uşaqların reabilitasiyası, sosial xidmətlərlə təmin oluması, cəmiyyətə inteqrasiyası və onların valideynlərinə psixo-sosial dəstəyin göstərilməsi məqsədilə daun sindromlu uşaq və onların valideynləri üçün **10** günlük yaz düşərgəsi təşkil edilmişdir.

Uşaqların asudə vaxtının səmərəli təşkili, ictimai fəallığın, eləcə də komanda ilə işləmə bacarıqları, liderlik keyfiyyətlərinin formalaşmasına dəstək göstərilməsi məqsədi ilə “Biz gələcəyik” adlı **7** günlük yay düşərgəsi təşkil edilmişdir.

Uşaq hüquqlarının qorunması istiqamətində qurumlararası işin təşkili və fəaliyyətin gücləndirilməsinə dair Astara rayonunda Lənkəran şəhəri, Astara, Yardımlı, Lerik, Cəlilabad, Masallı rayonlarından olan dövlət qurumları və qeyri-dövlət sektorunun nümayəndələri üçün təlimlər təşkil edilmişdir.

Uşaqların bilik və bacarıqlarının, liderlik qabiliyyətinin, milli-mənəvi dəyərlərinin və intellekt səviyyəsinin artırılması məqsədilə Mingəçevir şəhəri də daxil olmaqla ətraf rayonların şagirdləri arasında 8 Noyabr-Zəfər Gününə həsr edilmiş “Zəfər yolu” adlı intellektual yarış keçirilmişdir.

Dövlət Komitəsinin təşkilatçılığı ilə “Qalib Ölkənin Qalibləri-2024” adlı elm, təhsil, incəsənət və idman sahəsində Azərbaycanı beynəlxalq olimpiada və yarışlarda təmsil edərək qalib olmuş uşaqların təltif edilməsi məqsədilə istedadlı uşaqların mükafatlandırma mərasimi keçirilmişdir.

Dövlət Komitəsinin və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə “İTi zəka” hakaton müsabiqəsi keçirilmiş, 3 qalib komanda müəyyən edilmişdir.

Zəngilan rayonunun Ağalı kənd orta məktəbinin yuxarı sinif şagirdləri üçün “Uşaqların rəqəmsal bacarıqlarının artırılması” mövzusunda maarifləndirici təlim keçirilmişdir.

Dövlət Komitəsi tərəfindən yaradılmış elektron məlumat bankına aidiyyəti dövlət orqanlarından **2 582 500** uşaq haqqında məlumatlar daxil edilmişdir.

**Komitə bir sıra beynəlxalq təşkilatlarla əlaqələrin inkişaf etdirilməsi** istiqamətində fəaliyyət göstərmişdir.

“Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Tacikistan Respublikasının Hökuməti yanında Qadın və Ailə məsələləri üzrə Komitəsi arasında gender bərabərliyi sahəsində əməkdaşlıq haqqında Memorandum” layihəsi qarşı tərəflə razılaşdırılmış və 23 may 2024-cü il tarixində imzalanmışdır.

İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İCESCO) və Dövlət Komitəsi arasında əməkdaşlığa dair niyyət protokolu imzalanmışdır.

Dövlət Komitəsinin sədri Bahar Muradovanın Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliyinin rəhbəri, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) rezident nümayəndəsi, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin (Mormon kilsəsi) yüksək rütbəli nümayəndəsi, Qətər Dövlətinin Milli İnsan Hüquqları Komitəsinin sədri, Uqandanın gender, əmək və sosial inkişaf naziri,

ASEAN Parlamentlərarası Assambleyasının (AİPA) Baş katibi, "BMT-Qadınlar" (UN Women) təşkilatının Avropa və Mərkəzi Asiya ölkələri üzrə regional direktoru, BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycan üzrə ölkə direktoru, İslam Ölkələri Statistika, İqtisadi və Sosial Araşdırmalar və Tədris Mərkəzinin (SESRİC) baş direktoru, İsveçrə Konfederasiyasının və Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirləri ilə görüşü keçirilmişdir.

Türkiyə Respublikasının İstanbul şəhərində "Türk Dövlətləri Təşkilatının (TDT) sosial siyasətdən məsul nazir və digər qurum rəhbərlərinin "Beynəlxalq Ailə Günü"nə həsr olunmuş birinci iclası"nda Dövlət Komitəsinin sədri Bahar Muradova və nümayəndə heyəti iştirak etmişdir. 2025-ci ildə təşkil olunacaq iclasın Azərbaycan Respublikasında keçirilməsi qərara alınıb.

Çinin Şandon əyalətinin Çindao şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) "Rəqəmsallaşma vasitəsilə qadınların iqtisadi hüquqları və imkanlarının artırılması" mövzusunda Qadınlar Forumunda Dövlət Komitəsinin sədri Bahar Muradova iştirak etmişdir.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu çərçivəsində "Mədəniyyətlərarası dialoqlarda qadın hüquqlarının təşviqi: Qlobal inkişafa doğru" mövzusuna həsr edilən sessiya təşkil edilmişdir. Sözügedən sessiyada Dövlət Komitəsinin dəvəti ilə Uqanda, Türkiyə və İngiltərə dövlətlərinin həmkar qurumlarının rəhbərlərinin iştirakı təmin edilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova "Azərbaycanın 4-cü Könüllü Milli Hesabatına dair maraqlı tərəflərlə məsləhətləşmələr və 5-ci DİM üzrə irəliləyiş" mövzusunda 4-cü Dayanıqlı İnkişaf Məqsədləri (DİM) dialoqunda açılış nitqi ilə çıxış etmişdir.

İsveçrənin Cenevrə şəhərində BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi üzrə Agentliyinin (UN Women) birgə təşkilatçılığı ilə keçirilən "Pekin+30" Regional Baxış Görüşündə Komitə sədrinin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. Dövlət Komitəsi və Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə konfrans çərçivəsində "Hökumətin rəqəmsal transformasiyası vasitəsilə kənd qadınlarının iqtisadi səlahiyyətlərinin artırılması" adlı yan tədbir keçirilmişdir. Tədbir çərçivəsində fermer qadınlar və qadın kooperativlərinin məhsulları sərgilənmişdir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) çərçivəsində BMT-nin Uşaq Fondunun, COP29 Prezidentliyinin Gənclər İqlim Çempionu, Gənclər və İdman Nazirliyi və Dövlət Komitəsinin tərəfdaşlığı ilə keçirilən "Uşaqlar, gənclər və iqlim fəaliyyəti" üzrə yüksəksəviyyəli dəyirmi masa keçirilmişdir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) və Dövlət Komitəsinin təşkilatçılığı ilə "Şəffaflıqda Gender" mövzusunda yüksəksəviyyəli tədbir təşkil edilmişdir.

İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İCESCO) təşkilatçılığı, Dövlət Komitəsinin tərəfdaşlığı ilə "İqlim Dayanıqlılığı və Sülh Quruculuğunda Gənclərin Liderliyi" mövzusunda keçirilən və yuxarıda qeyd edilən yüksəksəviyyəli tədbirlərdə Dövlət Komitəsinin sədri yaxından iştirak edərək çıxışlar səsləndirmişdir

Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova ABŞ-ın Nyu-York şəhərində keçirilən BMT-nin Qadınların Vəziyyəti üzrə Komissiyasının "Yoxsulluğun

aradan qaldırılması, institutların möhkəmləndirilməsi və gender istiqamətli maliyyələşdirmə vasitəsilə gender bərabərliyinə nail olunması və bütün qadın və qızların səlahiyyətləndirilməsinin sürətləndirilməsi" mövzusunda keçirilən 68-ci sessiyasında, Türkiyə Respublikasının Ailə və Sosial xidmətlər Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Danışılmayanları aşkara çıxarmaq: münaqişənin qadınlara və qızlara sarsıdıcı təsiri" və "Gender büdcələşməsi inklüziv və ədalətli cəmiyyətə doğru transformativ yanaşma" adlı tədbirlərdə, Özbəkistan Respublikasının Səmərqənd şəhərində Asiya Qadınlar Forumunda, Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində "Dayanıqlı inkişaf naminə su" Beynəlxalq Fəaliyyət Onilliyi üzrə Üçüncü Yüksək Səviyyəli Konfrans çərçivəsində keçirilən "Qadınlar və Su" Beynəlxalq Forumunda, "Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının həyata keçirilməsinin təşviqi: SPECA ölkələri üçün yeni çağırışlar" mövzusunda SPECA-nın Gender və DİM üzrə İşçi Qrupunun illik onlayn iclasında, BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi, Sosial Komissiyası (ESCAP), BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE) və Tacikistan Hökuməti tərəfindən "SPECA Regionunda Yaşıl İnkişaf" mövzusunda Düşənbə şəhərində keçirilən İqtisadi Forumda iştirak və çıxışlar etmişdir.

Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, Heydər Əliyev Fondu və Milli Məclisin nümayəndələrinin iştirakı ilə Mərakeş Krallığının Rabat şəhərində Uşaq Hüquqları üzrə Milli Observatoriyasının (ONDE) vitse-prezidenti Qizlan Benjelun ilə görüş keçirilmişdir. Görüşdə uşaqların sosial dəstəklə təmin olunması, Heydər Əliyev Fondu ilə ONDE arasında bu sahədə əməkdaşlığın daha da gücləndirilməsi və gələcəkdə uşaqlara qayğı ilə bağlı həyata keçiriləcək potensial layihələr müzakirə edilmişdir. Bunların sırasında xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təcrübə mübadiləsi proqramı, uşaq hüquqları və şiddətə qarşı mübarizə mövzusunda beynəlxalq tədbirin, həssas kateqoriyadan olan uşaqların stimullaşdırılması üzrə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Dövlət Komitəsinin aparat rəhbəri Ceyran Rəhmətullayeva Birləşmiş Ərəb Əmirliklərinin "Gələcəyin hökumətlərinin formalaşdırılması" mövzusunda Dubay şəhərində keçirilən Dünya Hökumətlər Sammitində, Vyana şəhərində keçirilən "Yeni Yaranan Texnologiyalar: uşaqların cinsi istismar və zorakılıqdan müdafiəsi üçün təhlükələr və imkanlar" adlı tədbirdə, Lanzarota Konvensiyası Tərəflər Komitəsinin 43-cü iclasında, Tirana şəhərində keçirilən BMT-nin Qadınlar üzrə Agentliyinin Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi Albaniya Hököməti ilə "Gender Bərabərliyi və qadınların səlahiyyətlərinin gücləndirilməsinin təkmilləşdirilməsi üçün səmərəli institusional mexanizmlər: Pekindən sonra gələcək 30 ilin qrafiki" adlı konfranslarda iştirak və çıxışlar etmişdir.

**Kütləvi İnformasiya Vasitələri** ilə səmərəli əməkdaşlıq edərək, KİV tərəfindən daxil olmuş **198** media müraciətinin cavablandırılmasını təmin etmişdir. Bu müracətlərin əsas mövzuları erkən nikah və təhsildən yayınma halları (**41**), qohum evliliyi **(20),** nikah və boşanma **(35)** , selektiv abortlar (**14**) ilə bağlı olmuşdur.

22 İyul – Milli Mətbuat Günü ərəfəsində Dövlət Komitəsinin təşəbbüsü ilə jurnalistika ixtisası üzrə təhsil alan tələbələr üçün hazırlanan "Media və uşaq hüquqları" adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilərək, Dövlət Komitəsi ilə əməkdaşlıq edən media nümayəndələri təltif edilmişdir.

Eyni zamanda jurnalistika ixtisası üzrə təhsil alan tələbələr üçün Qəbələ rayonunda, jurnalistlər və sosial media blogerləri üçün isə İsmayıllı rayonunda Yay Təlim Proqramı keçirilmiş, İsmayıllı UADM-ə mediatur təşkil edilmişdir.

Həmçinin Dövlət Komitəsi sədrinin blogerlərlə görüşü təşkil edilmişdir.

Dövlət Komitəsi tərəfindən 2024-cü ildə 3 hesabat və təhlil yekunlaşmışdır: “Korrupsiyanın gender bərabərliyinə təsiri” sorğusunun nəticələri üzrə hesabat, “Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış: bullinq” mövzusunda analitik hesabat, “Ailədə gender bərabərliyinə mane olan patriarxal yanaşmalar və ayrı-seçkilik xarakterli stereotiplər” mövzusunda təhlil.

**Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə.** Dövlət Komitəsinin təşkilatçılığı ilə respublikanın 9 regionu üzrə 63 rayonda monitorinq və əlaqələndirmə qrupları üçün təlimlər keçirilmişdir.

Vəkillər və hakimlər üçün “Məişət zorakılığı ilə mübarizə və məişət zorakılığından zərər çəkmiş şəxslərlə davranış” mövzusunda təlim, “Eşitmə və nitq məhdudiyyətli şəxslər arasında məişət zorakılığına dair maarifləndirmə” mövzusunda isə seminar keçirilmişdir.

**Komitəyə daxil olan vətəndaş müraciətlərinə baxılması, təhlilin aparılması və aidiyyəti üzrə əlaqələndirilməsi ilə bağlı işlərin görülməsi**. 2024-cü il ərzində Komitəyə **3628** vətəndaş müracəti daxil olmuşdur. Vətəndaş müraciətlərinin mövzular üzrə təhlilindən aydın olmuşdur ki, məişət zorakılığı (**594**), məhkəmə qərarlarının icrası (**613**), işlə təmin olunma **(211),** müxtəlif yönümlü sosial müavinətlərin, yardımların, təqaüdlərin alınması (**173**), müayinə və müalicə olunmaqda köməklik (**158**) ilə bağlı müraciətlər üstünlük təşkil edir.

Məişət zorakılığı ilə bağlı daxil olan müraciətlərə dair lazımı tədbirlər görülmüş, yerli icra hakimiyyətlərinin Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları ilə əlaqə saxlanılaraq, müraciətlər Komitə tərəfindən nəzarətə götürülmüşdür. Daxil olan cavab məktublarının təhlili nəticəsində məlum olmuşdur ki, **103** vətəndaşa mühafizə orderi verilmişdir.

Komitə sədri **12 region** üzrə vətəndaş qəbulunu həyata keçirmişdir. Regional qəbullarda **99** müraciətə baxılmışdır.

İl ərzində **Könüllülük proqramına** müraciət edən **286** nəfər arasından **100-ə yaxın** könüllü seçilərək, Komitənin işinə cəlb edilmişdir. “Ailəm könüllüləri”nin 2024-cü il üzrə iştirakçıları ilə 4 layihə hazırlanıb və onların mükafatlandırılması həyata keçirilmiş, 53 nəfərə sertifikat təqdim edilmişdir. Ümumilikdə könüllülər 100-dən çox yerli və beynəlxalq tədbirdə, aksiyalarda, o cümlədən Prezident və Parlament seçkilərində iştirak ediblər.

Dövlət Komitəsinin regional fəaliyyəti ilə tanışlıq və gənclərin asudə vaxtının səmərəli təşkili məqsədilə könüllülər üçün il ərzində 4 səfər təşkil olunmuşdur (3 səfər İsmayıllı UADM-ə və 1 səfər Şüvəlan UADM-ə).

Azərbaycan Könüllü Təşkilatları İttifaqı, Gənclər və İdman Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi və Gənclər Fondunun əməkdaşlığı ilə 200 nəfərdən çox könüllü gənclərin iştirakı ilə “Yaşıl gələcəyə könül ver” adlı görüş keçirilmişdir**.**

**Dövlət Komitəsi il ərzində 16 ictimai birlik və qeyri-hökumət təşkilatı ilə birlikdə 44 tədbir və layihə reallaşdırmışdır.**

**Çap materialları, video roliklər**. “Valideynlər üçün övladları ilə münasibətə dair tövsiyələr” (1600 ədəd), “Gənc ailələrə tövsiyələr” (1000 ədəd) və aktual mövzularla bağlı şüarların yazıldığı eko qolbaqlar (5000 ədəd) çap edilərək paylanılmışdır.

Ailəm könüllülərinin iştirakı ilə “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyasının məlumatları və “xoşbəxtqadınxoşbəxtgələcək” həştəqi əks olunan eko çantalar əhali arasında paylanılmışdır.

26 iyun "Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü" ilə bağlı, "Qan qohumları arasında evliliklər və onun fəsadları" və "Sağlamlıq xoşbəxt həyatın əsas şərti və təminatıdır!" mövzularında elektron maarifləndirmə vəsaitləri, "Fiziki aktivlik" mövzusunda elektron poster hazırlanmışdır.

Dövlət Komitəsi tərəfindən "Öncə düşün", "Çinartək sığındığımız böyük ailəmiz", "Narkomaniya yox edir", "Uşaqlar arasında cins seçimi ilə mübarizə", "Ekoloji düşüncə ailədən başlayır" və "Genofondumuzu qoruyaq" adlı videoroliklər hazırlanmışdır.

Dövlət Komitəsi tərəfindən narkomaniyanın qarşısının alınmasına həsr olunmuş banerlər hazırlanmış və Bakı Metropoliteninin stansiyalarında elektron lövhələrdə nümayiş olunur. Banerlərin mətni yaşıl iqlim mövzusu ilə əlaqələndirilmiş və "yaşıldünyanaminəhəmrəyolaq" həştəqi ilə yayımlanmışdır.